**Koronavirus xəstəliyinin geniş yayılmasının qarşısını almaq məqsədi ilə Yaponiyada karantin müddətinin üzadilməsına qərar verilib.**

1. Viza əldə etmiş şəxslər

2 aprel 2020-ci il tarixinə kimi Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyində viza əldə etmiş şəxslərin nəzərinə çatdırırıq ki, qeyd olunmuş viza ilə Yaponiyaya səfər etmək mümkün deyil.
Sözügedən tədbirlərin nə zamana kimi qüvvədə olacağı bilinmir, lakin qadağalar aradan qaldırıldıqdan dərhal sonra vizanın etibarlılıq müddəti bitmədiyi təqdirdə Yaponiyaya səyahət etmək mümkün olacaq.
Yuxarıda qeyd olunanlar çoxdəfəli viza əldə etmiş şəxslər üçün də keçərlidir.

Vizanın etibarlılıq müddəti bitmiş şəxslər isə yenidən Səfirliyə müraciət edərək viza əldə edə bilərlər.

2. Yaponiyada yaşayış icazəsi əldə etmiş və hal-hazırda Azərbaycanda qalan şəxslərin nəzərinə:

Yenidən ölkəyə giriş icazəsinə malik olan şəxslər müəyyən edilmiş prosedurdan keçərək yenidən Yaponiyaya qayıda bilərlər.
Bunun üçün Konsulluq şöbəsinin mail ünvanına (consular@bk.mofa.go.jp) müraciət etməyiniz xahiş olunur.

3. Yeni vizaya müraciət etmək istəyən şəxslərin nəzərinə:

Hal-hazırda "turistik", "işgüzar" və "ailə üzvlərini ziyyarət" vizaları üzrə müraciətlərə baxılmır. Müraciətlərə yenidən baxılma tarixi hələki naməlumdur.

İstisna hallar üçün Konsulluq şöbəsinin consular@bk.mofa.go.jp mail ünvanına müraciət etməyiniz xahiş olunur.

Yaponiya Səfirliyi koronavirusun geniş yayılmasının qarşısını almaq məqsədi ilə bütün ziyarətçiləri öncədən yazılma sistemi ilə qəbul edir.

Öncədən əlaqə saxlamağınız xahiş olunur.

Tel: 490-7818
Mail: consular@bk.mofa.go.jp

Ətrafda baş verənləri nəzərə alaq yaranmış vəziyyətə anlayış göstərməyiniz xahiş olunur!

Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi
Konsulluq şöbəsi